26 iyun / 2021

# MEK-də "Qarabağ müharibəsi qəhrəmanları" fondunun açılışı olub

İyunun 24-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) "Qarabağ müharibəsi qəhrəmanları" fondunun açılış mərasimi keçirilib.

Öncə MEK-in rəhbərliyi və kollektivi İkinci Fəxri Xiyabanı ziyarət ediblər. Şəhidlərimizin əziz xatirəsi ehtiramla anılıb, məzarları üzərinə gül dəstələri qoyulub.

AMEA MEK-in baş direktoru, professor Məmməd Əliyev Azərbaycan kitabxana sistemində bir ilk olan və cəmiyyətimiz üçün mühüm əhəmiyyət kəsb edən "Qarabağ müharibəsi qəhrəmanları" fondunun açılışının Azərbaycan Silahlı Qüvvələrinin yaradıldığı günə təsadüf etdiyini xüsusi məqam kimi vurğulayıb. Baş direktor deyib ki, fonda rəhbərlik tarixi qələbəmizdə mühüm payı olan "Zəfər" ordenli zabitimiz, Azərbaycan Ordusunun polkovniki şəhid Babək Səmidlinin bacısı, MEK-in əməkdaşı Röksanə Səfərzadəyə həvalə edilib.

M.Əliyev Azərbaycanda bu mövzu ilə bağlı mətbuatda dərc ediləcək məqalələr, elmi nəşrlər, müdafiə olunacaq dissertasiyalar ilə fondun daha da zənginləşəcəyinə inamını dilə gətirib.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova çıxış edərək "Qarabağ müharibəsi qəhrəmanları" fondunun mühüm təşəbbüs olduğunu bildirib. O, Vətən müharibəsində tarix yazan qəhrəmanlar haqqında yazılanların burada əbədi qorunaraq gələcək nəsillərə ötürülməsinin vacibliyini qeyd edib.



Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı çıxışında vurğulayıb ki, ölkələrimiz arasındakı güclü qardaşlıq bağları Qarabağ zəfərimizlə bir daha özünü göstərdi : "Bu vəsiləylə 3000-ə yaxın şəhidimizi hörmətlə anırıq, qazilərə cansağlığı arzulayırıq".

Tədbirdə şəhid polkovnik Babək Səmidlinin qardaşı, I Qarabağ müharibəsinin veteranı, polkovnik-leytenant Müşviq Səmidli çıxış edərək qardaşının uşaqlıqdan vətənpərvər böyüdüyünü bildirib, ordumuzun möhtəşəm qələbəsindən sonsuz sevinclə danışıb.

Vətən müharibəsi qazisi Ceyhun Məmmədov keçdiyi döyüş yolundan, orduda olan böyük ruh yüksəkliyindən, Ali Baş Komandana sonsuz inamdan söz açıb, torpaqlarımız uğrunda sağlamlığını itirən döyüşçülərə göstərilən dövlət qayğısından razılığını ifadə edib.

MEK-in əməkdaşı, "Qarabağ müharibəsi qəhrəmanları" fondunun rəhbəri Röksanə Səfərzadə çıxışında qeyd edib ki, dövlətin və ictimaiyyətin dəstəyi, AMEA rəhbərliyinin yaxından köməkliyi və MEK-in təşəbbüsü ilə yaradılan fondun zənginləşdirilməsi üçün müharibə iştirakçıları və ailələri ilə əlaqələr qurulub. Birinci və İkinci Qarabağ müharibəsinin şəhidləri, qaziləri, iştirakçıları haqqında məlumat bazası yaradılıb və bu proses davam edir. Bundan əlavə, fondda olan nəşrlər və ədəbiyyatlar e-kataloqa daxil edilib".

Tədbirdə çıxış edən millət vəkilləri Tamam Cəfərova, Anar İsgəndərov, şəhid Vüsal Kazımovun atası Kamran Kazımov, dosent Xanım Sultanova, Milli Qəhrəman şəhid polkovnik İlqar Mirzəyevin oğlu Elvin Mirzəyev, Xocalı sakini Mürvət Məmmədov qəhrəmanlarımızın adlarını əbədiləşdirmək istiqamətində AMEA MEK-in gördüyü işi yüksək qiymətləndiriblər.

Tədbirin gedişində gənc xanəndələrdən Almaxanım Əhmədlinin ifasında "Xudayar təsnifi" və Anar Məmmədovun təqdimatında "Qarabağ" mahnısı dinlənilib.